Azərbaycan müəllimi .- 2019.- 27 sentyabr.- S.4.



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 623s nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 623s nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 623s nömrəli Sərəncamı icra və rəhbərlik üçün qəbul edilsin.

**2.** 2019/2020-ci tədris ili üçün Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələri üzrə tələbə qəbulu yerlərinin bölgüsü təsdiq edilsin (əlavə olunur).

**3.** Peşə Təhsili üzrə Dövlət Agentliyinə (P.Yusifov) tapşırılsın:
3.1. işəgötürən təşkilat və müəssisələrin tələbatına uyğun tələbə qəbulu yerlərinin bölgüsündə dəyişiklik edilməsi zərurəti yarandıqda, bu barədə təkliflərin Təhsil Nazirliyinə təqdim edilməsini;
3.2. peşə təhsili müəssisələri tərəfindən tələbə qəbuluna dair statistik hesabatların cari ilin noyabr ayının 1-nə qədər Peşə Təhsili üzrə Dövlət Agentliyinə təqdim olunmasını;
3.3. tələbə qəbulu yerlərinin bölgüsünün peşə təhsili müəssisələrinə çatdırılmasını təmin etsin.

**4.** İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin "Azərbaycan müəllimi" qəzetində və "Peşə təhsili və insan kapitalı" jurnalında dərc edilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

*13 sentyabr 2019-cu il*